# Yardımlı sabaha inamla addımlayır...

***Əski türklər dağları canlı sayırdılar, buna görə də onlara sevgiylə, ehtiramla "xan" deyirdilər: Xan Tenqri, Xan Altay... Qədim türk yurdu Yardımlıda da belə inanclar güclüdür. Dağlar ucalığına, vüqarına görə sevilir. Alar yaxınlığındakı Qız qalasına hər oğul çıxa bilmir. Ucqar kəndlərdə bu gün də qız-gəlinlər dağ başında Ay görəndə yaşmanır və salavat çevirirlər.***

Yardımlının "ağsaqqal" dağları və başdan papaq salan zirvələri Şahnişin, Talakeş, Peştəsər, Saxlabaran, Üzəbaş, Sarp, Qızıldağ və digər ucalıq nöqtələri hər zaman sadiq sakinlərinin sığınacağı, arxadayağı olub. Ötən əsrin 20-ci ilində Azərbaycanda sovet hakimiyyəti qurulsa da, bolşevik hökuməti burada yalnız bir il gecikməklə bərqərar olub. Səbəb dağ kimi əyilməz oğulların "gavur"lara tabeçilik göstərməməsi idi. Vərgədüzdə (Yardımlı rayonunun



əvvəlki adı) əhalinin müəyyən hissəsi bu hökuməti tanımayıb. Hardasa 1923-cü ilədək burada AXC-nin milli pul vahidi, daha beş-altı il də İran pul əskinasları işlədilib.

Qocaların dediyinə görə, 1928-30-cu illərdə hakimiyyət orqanları soveti tanımayan sakinlərə qarşı banditizmlə mübarizə adı altında əməliyyatlar keçirib. Yerli camaat ruslara var gücü ilə müqavimət göstərdiyi üçün Honuba kəndində 31, Şıxlarda 42, Musakənddə 14 ev yandırılıb. Bundan başqa, Gügəvarda 42, Astalıda 6, Zeynələzirdə 10, Peşkənddə 2 evə də od vurulub. Bütün bunlara baxmayaraq, rayonda qolçomaq elementlərini müəyyənləşdirmək mümkün olmayıb. Şura hökuməti bu haqda nə kənd sovetlərindən, nə də əhalidən heç bir məlumat öyrənə bilməyib. Yalnız 1923-cü ildə XI Qızıl Ordunun 245-ci alayı uzun mübarizədən sonra xeyli itki verməklə direnişi yenə bilib və ərazini ələ keçirib. İşğalçı alayın komandiri, qəddarlığı ilə tanınan zabit Dalqov rus dilini bilməyən əhaliyə qarşı düşmənçəsinə davranıb…

Bütün bunlar barədə yazıçı Məmmədhüseyn Əliyevin " Dağlarda döyüş" əsərində də geniş yazılıb. Şair Hafiz Rüstəmin "Qaçaq Həsən" dastanında isə Yardımlıda bolşevizmə qarşı mübarizə aparmış milli-müqavimət hərəkatının liderlərindən olan babaların həyatı qələmə alınıb.

Yüksək dağlıq ərazidə qərar tutan Yardımlı rayonunda yalnız ötən əsrin 70-ci illərindən etibarən müəyyən inkişaf prosesi nəzərə çarpmışdır. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Yardımlının da üzü gülməyə başlayıb. İstər həmin dövrlərdə, istərsə də müstəqillik illərində Yardımlıda dinamik inkişaf hiss olunub. Yaşayış məntəqələrinin əksərinə işıq, qaz çəkilib, əlçatmaz kəndlərə yollar salınıb, ünyetməz obalarla rabitə yaradılıb. Prezident İlham Əliyevin Yardımlıya hər səfəri həyat əhəmiyyətli neçə-neçə obyektin açılışı ilə əlamətdar olub. Son illərdə Yardımlıda aparılan tikinti-quruculuq, abadlıq işləri nəticəsində yeni-yeni ictimai binalar, yaşayış evləri, təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilib, parklar, xiyabanlar salınıb, küçələr, işıqlandırma sistemi yenilənib, düz 45 il qəsəbə olmuş rayon mərkəzinə, nəhayət, şəhər statusu verilib.

Hazırda qış bəyazlığına bələnən Yardımlıda havalar soyuq olsa da, bu, yurdsevər sakinlərin ürəklərinin hərarətini azalda bilmir. Təbiətin səxavətini əsirgəməmədiyi dağlar diyarında əhalinin həyat tərzi də ilbəil yaxşılaşır. Yollar, cığırlar qar altında gizlənsə də, hərəkət dayanmayıb. Hünərli sürücülər maşınlarını "şaquli" diklərə belə çıxara bilirlər. Qarda təkər izləri qış şeirinin misraları kimi yoxuşlara, gədiklərə yazılır. Damların buz sırsıraları sanki tül pərdə saçaqlarıdır. Ormanlar qış yuxusuna gedib. Bulaqların nəğməsi dodağında donub. Zirvələr qar libasında bir az da müdrik görünür, ağsaqqalcasına qımışır...

Yox, düşünməyin ki, mən qarın zahiri gözəlliyini qabardıram və rayon rəhbərliyinin, yerli əhalinin qış qayğılarından xəbərsizəm. Əlbəttə, həmin qayğıların hər bir dağ rayonunda olduğu kimi, Yardımlıda da mövcudluğunu yaxşı bilirəm. Camaatın sınaqlara fədakarcasına sinə gərdiyini də vurğulayıram. Amma bütün bunlarla bərabər, sosial inkişaf zəminində təbiətin gözəllik, saflıq töhfələrini də görməmək mümkünsüzdür. Şair Fikrət Şahbazlı deyir ki, Yardımlı bizim isti beşiyimiz, ilhamımızın çağlar



bulağıdır.

Dövlət və hökumət tərəfindən də Yardımlının problemlərinə böyük qayğı ilə yanaşılması razılıq doğurur. Ayaz Əsgərovun rayonda rəhbərliyə başlamasından çox vaxt keçməsə də, yardımlılara doğma münasibətinə görə hörmət qazanıb. Problemlərin həlli üçün əlindən gələni əsirgəmir. Vacib işlərlə bağlı hökumət orqanları qarşısında elə hey məsələ qaldırır. Nail olduğu uğurlar da az deyil.

Qarabağ uğrunda döyüşlərdə həlak olan şəhidlərin, veteranların ailələri üçün yaşayış evləri inşa olunub, əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə Sineyir adlanan ərazidən rayon mərkəzinə xüsusi xətt çəkilib, kəndlərdə artezian quyuları qazılıb. Turizmin inkişafı ilə bağlı lazımi tədbirlər həyata keçirilib.

Cari ildə rayonda tikinti-abadlıq-quruculuq işləri, yerli əhəmiyyətli avtomobil yollarının asfalt və çınqıl örtüklə təmiri, əhalinin içməli su ilə təchizatı, məktəb tikintisi, kommunal yaşayış evlərinin dam örtüyünün dəyişdirilməsi və digər infrastruktur layihələrinin icrası həyata keçirilib.

May-iyun aylarında şəhərin Heydər Əliyev küçəsində, "20 Yanvar" küçəsində yolun üst hissəsində yüzlərlə metr uzunluğunda istinad divarları hörülüb, yol genişləndirilərək eni 6-7 metrə çatdırılıb. Üç kommunal yaşayış binasının dam örtüyü dəyişdirilib. Kənd yaşayış məntəqələrində inzibati binaların tikintisi davam edib. Rayonun Zeynəlazir kəndində 40 yerlik ibtidai məktəb tikilərək müəllim və şagirdlərin ixtiyarına verilib. Honuba-Şıxlar və Avaş kəndlərində tibb məntəqələri inşa olunub. Qəzalı vəziyyətə düşmüş fərdi yaşayış evlərinin yerinə yenilərinin tikintisinə başlanıb. Bundan başqa, Horavar və Şəfəqli kəndlərində iki şəhid ailəsi üçün birmərtəbəli, 4 otaqlı müasir evlər tikilir. Digər şəhid ailələri üçün də fərdi yaşayış evlərinin inşası ilə bağlı əlaqədar təşkilatlara rəsmi müraciətlər edilib.



Camaatı sevindirən ən önəmli işlər – rayondaxili, kəndlərarası yolların təmiri və çaylar üzərində körpülərin salınması ardıcıl davam edir. Bu yöndə görülən tədbirlər nəticəsində bir çox kəndlərarası və kənddaxili yollar təmir olunub və ya əsaslı şəkildə yenidən qurulub. Rayonun 7 kəndində – Gendərə, Astanlı, Separadi, Horonu, Şiləvəngə, Vərgədüz və Dəlləklidə ümumi uzunluğu 33 kilometr olan daxili yollara çınqıl örtük döşənib. Son illərdə rayonda, ümumilikdə, 210 kilometrlik yol əsaslı təmir edilib və ya çınqıllanıb. Bu yolların 104 kilometri asfalt, 106 kilometri isə çınqıl örtüklüdür. Əlavə olaraq, Viləş çayı üzərində, Keçələkəran kəndinə gedən yolda yükgötürmə qabiliyyəti 30 ton olan körpü yenidən qurulub. Teşkan kəndində isə yükgötürmə qabiliyyəti 50 ton olan yeni körpü salınıb.

Yardımlı şəhərinə 72 kilometrlik su və 45 kilometrlik kanalizasiya xətlərinin çəkilişi son mərhələdədir. Nəzərdə tutulmuş 10 ədəd su anbarından 9-unda və çirkab sutəmizləyici qurğusunda inşaat işləri aparılır. Kəndlərə də içməli su çəkilişi davam edir. Ölkə Prezidentinin sərəncamı ilə Urağaran və Zevin kəndlərində artezian quyuları qazılıb. Avqustda Vərov kəndinə isə içməli su xətti çəkilərək istifadəyə verilib. Eyni zamanda, Sineyirdən çəkilən su xətti Yolocaq və Horonu kəndlərinə qədər çatdırılıb. Noyabrda orada açılış olub.

Ötən müddətdə yaşayış məntəqələrinin qazlaşdırılması işləri də davam edib. Mavi yanacaq alanların sayı, 2353-ü əhali kateqoriyasından olmaqla, 3 min 372 abonentə çatdırılıb. Oktyabr ayında isə 246 abonenti olan Vərgədüz kəndinə təbii qaz verilib. Qış fəslində hər hansı bir qəzanın baş verməməsi üçün xətlərdə təmir işləri başa çatdırılıb.

Rayonun elektrik təsərrüfatı da gücləndirilib. Əhalinin işıqla fasiləsiz təchiz olunması məqsədilə şəbəkəyə 1000-ə yaxın elektrik dayağı gətirilib və xətlərdə təmir işləri aparılıb, transformatorlar yenilənib. Masallı -Yeni Yardımlı 35 kilovoltluq ikidövrəli elektrik verilişi xətlərində, "Yel Bərəsi"



adlanan ərazidə ara məsafələr qısaldılaraq dayanıqlıq təmin edilib. Qəzalı xətlər sayılan Allar və Şıxhüseyinli kəndlərinin elektrik xətlərində isə kompleks yenidənqurma işinə başlanıb.

Ayaz Əsgərov Yardımlıya gələndən sonra vaxtaşırı olaraq yerlərdə sakinlərlə görüşlər keçirərək onların qayğıları ilə maraqlanmağı özünün ümdə vəzifə borcları siyahısına daxil edib. Aprel ayından bəri icra hakimiyyəti başçısının kəndlərdə 20-yə yaxın səyyar qəbul və görüşü olub. Bundan başqa, rayon ağsaqqalları ilə, şəhid ailələrinin üzvləri və müharibə veteranları ilə, ayrı-ayrı sahələrin təmsilçiləri ilə keçirilən görüşlər də işgüzar ruhu ilə yadda qalıb. Bu görüşlər cari və perspektiv fəaliyyət konturlarını dəqiqləşdirmək, operativliyə nail olmaq baxımından önəmli olub, həmçinin sadə adamların rayon rəhbərliyinə inamını artırıb.

...Bu günlərdə "Azərbaycan" nəşriyyatında Əməkdar jurnalist Sahib Əliyevə rast gəldim. Ağsaqqal həmkarım dedi ki, doğma yurdun uğurlarını daim izləyir və fərəhlənir. Sahib müəllim uzun müddət Yardımlıda rayon qəzetinin redaktoru olub, 10-dan çox bədii və publisistik kitabın müəllifidir. Bir neçə il öncə doğma diyarın yazarlarının əsərlərindən ibarət "Dağların söz xəzinəsi" adlı bədii toplunu özünün direktoru olduğu "Açıq dünya" nəşriyyatında çap eləyib. Topluda 47 müəllifin seçmə yazıları yer alıb. "O elə insandır, dağ vüqarı var, fikrini üşütməz nə boran, nə qar", -sanki özü haqqında deyib bu misraları Sahib müəllim. Xalq artisti Zeynəb Xanlarovanın musiqi bəstələyib oxuduğu "Vətən, sənə vurulmuşam" mahnısının da sözləri ona məxsusdur. Sahib müəllimin qənaətinə görə, harada yaşamasından asılı olmayaraq, doğma yurd-yuvaya məhəbbət hər kəsin ürəyində taxt qurub, qərar tutub. Oradan gələn xoş soraqlar adamı həddsiz sevindirir.

Yardımlı dağ yeridir. Burada inkişaf da var, müəyyən çatışmazlıqlar da. Amma çətinliklərin yenilməsi, qayğıların azalması, güzəranın düzəlməsi hər kəsin ürəyindəndir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***